**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)**

**rektoru, professor Ədalət Muradova**

**Hörmətli Ədalət müəllim!**

Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) 90 illik yubileyi münasibətilə təbrik edir, milli maraqlara əsaslanan, müasir qlobal çağırışlara cavab verən, ölkəmizin inkişafına xidmət edən səmərəli və çoxşaxəli fəaliyyətinizdə yeni nailiyyətlər diləyirəm.

Sıralarında AMEA-nın, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvləri, Dövlət Mükafatı laureatları, Əməkdar müəllim və elm xadimlərinin olduğu professor-müəllim heyətinin fəaliyyət göstərdiyi UNEC, hər şeydən əvvəl, təhsil sisteminin müasirliyi ilə fərqlənir. Cənubi Qafqaz regionunun ən böyük ali təhsil müəssisələrindən olan universitetdə yüksək keyfiyyətli tədris prosesinin təşkili üçün müasir texnoloji vasitələr və innovasiyalardan səmərəli istifadə olunması xüsusi əhəmiyyətə malikdir. Fəaliyyətində və tədqiqat prosesində akademik azadlıq, akademik etika, şəffaflıq, fərqliliklərə hörmət, cəmiyyət mənafeyini düşünmək, ekologiyaya həssaslıq kimi prinsipləri üstün tutan universitet kollektivinin uğurlu fəaliyyəti elm sahəsində ənənəvi paradiqmaların yeni dəyərlərlə zənginləşməsində vacib rola malikdir.

Azərbaycan Dövlət İqtisad Universiteti ölkəmizdə intellektual kapitalın və kadr potensialının inkişafı istiqamətində mühüm rol oynayır. UNEC-in məzunu olan peşəkar iqtisadçıların cəmiyyət həyatının müxtəlif sahələrində, strateji idarəetmə istiqamətində səmərəli fəaliyyəti Azərbaycanın dayanıqlı inkişafına olduqca mühüm töhfədir. Yüksək bilik və

bacarığa, intellektual potensiala malik olan kadrlar, eyni zamanda, bilik iqtisadiyyatı və informasiya cəmiyyəti şəraitində biznes menecmenti kimi yeni sahənin inkişafında çox fəal rol oynayırlar. Dünya miqyasında rəqabət qabiliyyətli ali təhsil müəssisələri sırasında yer alan UNEC-in reytiniqinin davamlı olaraq artması da sadalananların qanunauyğun nəticəsi və real ifadəsidir.

Sizi bir daha 90 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, səmərəli fəaliyyətinizdə yeni elmi uğurlar arzulayıram!

**Hörmətlə, Hikmət Babaoğlu**

**“Yeni Azərbaycan” qəzetinin baş redaktoru,**

**Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor**